# “Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim”

***2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində ümummilli lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciəti bütövlükdə, Azərbaycan xalqının İlham Əliyevə olan böyük ümidinin, inam və etimadının təcəssümü kimi yaddaşlara köçüb. Ulu öndərin bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir:***

***Azərbaycan son 15 il ərzində beynəlxalq aləmdə böyük uğurlara imza atdı. Bizim dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycan çox müsbət beynəlxalq reputasiyaya malik olan bir ölkədir. Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir.***

***Prezident İlham Əliyevin 2018-ci il aprelin 18-də keçirilmiş andiçmə mərasimindəki nitqindən***



“...Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Həmin ildən başlayaraq, hər dəfə ölkəmizdə prezident seçkiləri keçiriləndə ulu öndərin xalqa müraciətinin reallıqları göz önündə canlanır. Xalq yekdilliklə yenidən Prezident İlham Əliyevə etimad göstərir və ölkəmizin taleyini etibarlı əllərə həvalə edir. Dörd il əvvəl – 2018-ci ilin aprelində ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərində İlham Əliyev yenə də seçicilərin mütləq əksəriyyətinin səsini qazanaraq dördüncü dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. 2003-2018-ci illərdə ölkənin nail olduğu dinamik inkişaf kursunun, respublikada bütün sahələrdə qazanılmış mühüm nailiyyətlər, ölkəmizin beynəlxalq aləmdə sayılıb-seçilən dövlətlər sırasına qoşulması, habelə Cənubi Qafqazda söz sahibinə çevrilməsi xalqın gələcəyə olan inamını daha da artırdı. Məhz bu amillər seçicilərin diqqətindən yayınmadı və növbəti dəfə də tərəddüd etmədən cənab İlham Əliyevə etimad göstərdilər.

Prezident İlham Əliyevin son andiçmə mərasimi zamanı “daha heç nə əvvəlki kimi olmayacaq” vədi xalqın gələcəyə olan ümidini daha da artırdı. Bu, həm də işğalçı Ermənistana, onun havadarlarına xəbərdarlıq idi. Beləliklə, Prezident İlham Əliyevin 2018-ci il aprelin 18-də andiçmə mərasimində söylədiyi “Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar” deyimi özünü real hadisələrlə doğrultdu. 2020-ci il noyabrın 10-da Ermənistan ordusunun Azərbaycan Silahlı Qüvvələri qarşısında diz çökməsi son dörd ilin möhtəşəm uğuru oldu.

Təkcə son dörd ildə yox, ümumiyyətə, Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi dövrdə bütün fəaliyyətini Azərbaycanın inkişafına və möhkəmlənməsinə həsr edən lider kimi xalqımızın böyük rəğbətini qazanıb. Dövlət başçımızın dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrikcəsinə, böyük uzaqgörənliklə yanaşması həyata keçirdiyi siyasi kursun prioritetini təşkil edir. Prezident İlham Əliyev praqmatik düşüncəli siyasətçi kimi ümummilli və qlobal məsələləri peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır. Möhtərəm Prezidentimiz mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində nüfuz qazanıb.

Son dörd ildə ölkə həyatının bütün sahələrində inqilabi dəyişikliklər baş verib. Hələ 2019-cu ildə sosial ödənişlər orta hesabla 100 faiz, bəzi sahələrdə daha çox artıb. 2020-ci və 2021-ci illərdə də sosial ödənişlərdə növbəti artımlar (indeksasiya, təqaüd artımları) edildi. Pandemiyanın fəsadlarının qarşısının alınması üçün genişmiqyaslı dəstək proqramları icra olundu. 2022-ci ilin əvvəlindən isə 3,4 milyon şəxsi əhatə edən əməkhaqqı, pensiya və digər sosial ödənişlər artırıldı və bunun üçün də illik əlavə 2,1 milyard manat ayrıldı. Son 4 ildə minimum əməkhaqqı 2,3 dəfə, orta aylıq əməkhaqqı 40 faizə yaxın artıb. Minimum pensiyada 2,2 dəfə, orta pensiyada 65 faiz artım, müavinət və təqaüdlərdə orta hesabla 2,5-3 dəfə, bəzi istiqamətlərdə 3 dəfədən çox artım baş verməsi verilən vədlərə sadiqliyin bariz nümunəsidir. Dövlət başçımız bütün bu uğurların özülünü 2003-2018-ci illərdə həyata keçirdiyi gərgin fəaliyyəti dövründə qoydu...

2003-cü ildən keçən illər ərzində isə Azərbaycan xalqı və dövləti, sözün əsl mənasında, sürətli inkişaf dövrünü yaşamış, problemlərin böyük hissəsi öz həllini tapmış, istənilən istiqamət üzrə konkret proqramlar icra edilmişdir. Həmin dövrdə həyata keçirilən regionların sosial-iqtisadi inkişafını əhatə edən dövlət proqramları ölkəmizin simasını tamamilə dəyişdi, gücünü artırdı, reytinqini daha da yüksəltdi və əhalinin güzəranının yaxşılaşdırılmasında əsaslı dönüş yaratdı. Ötən illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların vaxtında yerinə yetirilməsi milli iqtisadi inkişaf modelinin möhkəm təməllər üzərində qurulmasının əyani göstəricisidir.

Həmin dövrdə dünyada baş verən böhran fonunda ölkəmiz inkişaf tempini qoruya bilmişdir. Xüsusilə, qeyri-neft sektoruna önəm verilməsi iqtisadi böhranı aradan qaldırmışdır. Ölkəmizin qeyri-neft sektorunda müşahidə olunan dinamizmi iqtisadiyyatın inkişafı ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar. Ölkə iqtisadiyyatının əsas göstəriciləri qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafıdır. Bütün bu istiqamətlər üzrə uğurlar əldə olundu. On beş il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır.

2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard ABŞ dollarından çox sərmayə qoyulmuşdur. Azərbaycanda xarici dövlət borcu çox aşağı səviyyədə olub. Bu, ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzdan 4-5 dəfə çoxdur. Bu dövrdə yoxsulluq səviyyəsi, təxminən, 50 faizdən 5,4 faizə, işsizlik 5 faizə düşüb.

2008-ci ildə Azərbaycan peykinin orbitə çıxarılması haqqında qərar verilməsi və 2013-cü il fevralın 8-də Azərbaycanın ilk süni telekommunikasiya peykinin – “Azerspace-1”-in orbitə çıxarılması ölkəmizin həyatında çox əlamətdar, böyük nailiyyət kimi yadda qaldı. Azərbaycanın kosmik ölkələr sırasına daxil edilməsi postsovet dövlətləri arasında qazanılan çox böyük uğur kimi dəyərləndirilir. 2014-cü ildə Azərbaycan ikinci müşahidə peykinə sahib olmuş, bu peyk – “Azersky” ölkəmizə təhvil verilmişdir. Bu peyk yer səthini yüksək dəqiqliklə müşahidə edir və dünyada cəmi 20 ölkə belə peyklərə malikdir. Bu uğur ölkəmizin sürətli inkişaf yolunda inamla irəliləməsindən xəbər verirdi.

Həmin dövrdə xarici siyasət, mədəni-humanitar və idman sahələrində qazanılan uğurları saymaqla qurtaran deyil. O ilərin ən yaddaqalan hadisələrindən biri 2011-ci il oktyabrın 24-də Azərbaycanın 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155-nin dəstəyini qazanaraq inamlı qələbəsi olmuşdur. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla, ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu kimi qəbul edilməlidir

Azərbaycan BMT Təhlükəsizlik Şurasında təmsil olunmaqla yanaşı, 2011-ci ilin mayında 120 dövlətin daxil olduğu Qoşulmama Hərəkatına üzv qəbul edildi. Bu gün Azərbaycan QH-yə uğurla sədrlik edir. 2015-ci il noyabrın 15-16-da Türkiyənin Antalya şəhərində “G-20” sammitində Azərbaycanın “Böyük İyirmilik” tədbirlərində iştirakı da mühüm əhəmiyyət kəsb edir. Sammit həm regional, həm də beynəlxalq problemlərin həlli üçün zəruri tədbir kimi yadda qalmışdır. “Böyük İyirmiliy”in hər il keçirilən zirvə toplantısı ilin əsas iqtisadi hadisəsi hesab edilir və dünyanın aparıcı iqtisadi, hərbi, siyasi gücə malik dövlətləri bu toplantıda təmsil olunurlar. Belə bir nüfuzlu tədbirdə ölkəmizin də təmsil olunması dövlətimizin beynəlxalq imici, siyasi-iqtisadi qüdrətinin getdikcə artmasının göstəricisidir.

Dövlət başçımızın ordu quruculuğunun inkişafına verdiyi önəm xüsusi qeyd olunmalıdır. Çünki müharibə şəraitində yaşayan, ərazisinin 20 faizi işğal altında olan bir ölkənin ordu quruculuğunun inkişafı ən önəmli məsələlərdən idi. Məhz bu amili diqqətdə saxlayan dövlət başçımız silahlı qüvvələrimizin ən müasir silah-sursatla təmin olunması, yeni hərbi hissələrin yaradılmasını prioritet vəzifə kimi qarşıya qoydu.

Ordunun inkişafına xüsusi diqqət göstərilməsi 2016-cı ilin Aprel döyüşlərində özünü büruzə verdi. Həmin döyüşlər təsdiqlədi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Aprel döyüşləri xalqla ordunun birliyini daha da möhkəmləndirdi, yeniyetmələrin, gənclərin vətənpərvərlik duyğularını kükrətdi, hər fərdi əsgərləşdirdi, böyük qələbənin uzaqda olmadığını təsdiqlədi. Həmin döyüşlərdə Azərbaycan Ordusu düşmənə güclü zərbə endirdi və qısa müddətdə Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında 2 min hektar ərazini düşməndən azad etdi, işğal altında qalan torpaqlara nəzarət etmək imkanını artırdı. 2018-ci ilin mayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən, Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan – Gorus – Laçın yolu nəzarətə götürülmüşdür.

Dövlət başçımız 2016-cı ilin Aprel döyüşlərini tariximizin şanlı səhifəsi adlandıraraq demişdir: “...Azərbaycan böyük hərbi qələbə əldə etmişdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib, o torpaqlarda Azərbaycan bayrağını ucaldıb. İki min hektardan çox torpaq işğalçılardan təmizləndi, ondan bir neçə dəfə böyük olan ərazi tam bizim nəzarətimizə keçdi. Biz təmas xəttində tam üstünlük əldə etmişik və bu gün düşmənin istənilən hədəfini məhv edə bilərik...

Əgər Aprel döyüşlərinə qədər onlar öz mifoloji fəaliyyətlərində müəyyən dərəcədə uğurlar qazana biliblərsə, Aprel döyüşləri onların təbliğatına ciddi zərbə vurub, erməni cəmiyyətini sarsıdıb. O sarsıntının fəsadları bu günə qədər orada hiss olunur. Aprel hadisələri orada dərin hərbi və siyasi böhrana gətirib çıxarıb. Bu, hələ qısamüddətli döyüşlər idi. Ona görə onlar düzgün nəticə çıxarmalıdırlar və bilməlidirlər ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Nəyin bahasına olursa-olsun ərazi bütövlüyümüzü bərpa edəcəyik”.

Prezident, Ali Baş Komandan İlham Əliyev bundan sonra da ordumuza nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacağını, heç bir məhdudiyyətin olmayacağını bildirmişdir: “Hərbi gücümüz eyni zamanda, torpaqlarımızın azad olunmasında və ərazi bütövlüyümüzün bərpasında öz rolunu oynayır və oynayacaq”.

Son illər xarici siyasət sahəsində qazandığımız uğurlar bir-birini əvəz edir. Bu nailiyyətlər ölkəmizin təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayıb. Azərbaycan, Türkiyə və Pakistanın parlament sədrlərinin Bakıda keçirilən birinci üçtərəfli toplantısının yekununda qəbul edilmiş Bakı Bəyannaməsi, Prezident İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə, Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşü və Şuşa Bəyannaməsinin imzalanması, Moskvada “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında” Bəyannamənin imzalanması ölkəmizin beynəlxalq aləmdəki mövqeyini daha da möhkəmləndirib.

Azərbaycanla İran arasında, qonşu ölkənin ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən yeni kommunikasiya bağlantılarının yaradılması haqqında imzalanmış Anlaşma Memorandumu regional əhəmiyyətli tarixi sənəddir. Anlaşma Memorandumu düşmənlərimizi çətin vəziyyətə salıb. Azərbaycan “3+3” formatının yaradılmasını dəstəkləyir. Amma İranla imzaladığımız bu memorandum Ermənistansız da regionda yeni əməkdaşlıq formatının, yəni “3+2” formatının yaranacağından xəbər verir. Memorandumun imzalanması və İran ərazisində 55 kilometr uzunluğunda yeni kommunikativ marşrutun yaradılması Ermənistanın regionda əhəmiyyətini tamamilə itirir. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbəsi ilə regionda yeni reallıq yaradıb. Bu reallıq region ölkələrinin baxışlarını dəyişib, gələcəyə daha inamla baxmağa imkanlar formalaşdırıb.

Azərbaycan Ordusunun Ermənistan üzərindəki tarixi qələbəsindən sonra Cənubi Qafqazda yaranmış reallıqlar beynəlxalq aləmdə də etiraf olunur. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş Qarabağ yenidən qurulur. Həmin ərazilərdə yenidənqurma, tikinti-quraşdırma, abadlıq işləri geniş vüsət alıb. Hətta, bir sıra xarici ölkələrin iri şirkətləri də bərpa-quruculuq işlərinə qoşulub. Bütün işlər ardıcıllıqla və planlı şəkildə həyata keçirilir. Əminliklə demək olar ki, Şuşanın, Ağdamın, Füzulinin, Zəngilanın, Cəbrayılın baş planlarının hazırlanması və yenidənqurma işlərinin bu planlar əsasında davam etdirliməsi qısa zamanda Qarabağın cənnətə çevriləcəyinə böyük inam yaradır.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***